# METHODICAL BASIS OF MODELS AND EXPLANATIONS OF TEXT-TYPE TEST TASKS USED IN THE EXIT EXAMS ORGANIZED IN THE XI GRADE ON THE AZERBAIJAN LANGUAGE SUBJECT IN COMPREHENSIVE SCHOOLS

**Sadaqat S.**
*teacher, Azerbaijan*
https://orcid.org/0009-0006-9280-6926

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ XI SİNİFDƏ TƏŞKİL OLUNAN BURAXILIŞ İMTAHANLARINDA İSTİFADƏ EDİLƏN MƏTN TİPLİ TEST TAPŞIRIQLARI MODELLƏRİ VƏ İZAHLARININ METODİKİ ƏSASLARI

**Sədaqət S.**
*müəllim, Azərbaycan*
https://orcid.org/0009-0006-9280-6926
https://doi.org/10.5281/zenodo.15220779

**Abstract**

The article discusses the importance of correct and clearer teaching of text-type test tasks in the teaching of the Azerbaijani language in comprehensive schools for the high-level preparation of students for the XI grade final exams, as well as the formation of broad worldviews in them towards the development of rapid reading and comprehension skills. The article also highlights the methodology for explaining text-type test tasks used in the 11th grade final exams in a clearer and faster way so that students can answer them in a shorter time and in an easier way.

**Xülasə**

Məqalədə ümumtəhsil məktəblərində Azərbaycan dili fənninin tədrisində mətn tipli test tapşırıqlarının düzgün və daha aydın öyrədilməsinin təhsilalanların həm XI sinif üzrə buraxılış imtahanlarına yüksək səviyyədə hazırlanmalarına, həm də onlarda sürətli oxuyub-anlama bacarıqlarının inkişaf etdirilməsi istiqamətində geniş dünyagörüşlərinin formalaşdırılmasının mühüm əhəmiyyətindən bəhs edilir. Həmçinin məqalədə XI sinif buraxılış imtahanlarında istifadə edilən mətn tipli test tapşırıqlarının şagirdlər tərəfindən daha qısa vaxt ərzində asan üsullarla cavablandırmaları üçün daha aydın və sürətli təhlil üzrə izah metodikası ön plana çəkilmişdir.

**Keywords:** innovative learning, plan, thesis, image, fact, premise, creative thinking, critical thinking.
**Açar sözlər:** innovativ təlim, plan, tezis, obraz, fakt, müddəa, yaradıcı təfəkkür, tənqidi təfəkkür.

Apardığımız araşdırmalara əsasən deyə bilərik ki, təhsil dəyişdikcə, tədrisin əsas nüvəsi olan dərsin xarakteri və bununla yanaşı imtahanlarda istifadə olunan sual tiplərinin məzmunu da dəyişir və yenilənir. Fənn kurikulumlarında məzmun standartlarının bilik və bacarıqlar formasında verilməsi şagirdlərin hərtərəfli inkişaf etdirilməsinə, onların gələcəyin qurucuları kimi yetişmələrinə imkan verir. Lakin bu prosesin səmərəli olması üçün Azərbaycan dilinin tədrisi müasir tələblərə uyğun qurulmalı, hər bir tədris vahidinə uyğun hazırlanan mətn tipli imtahan suallarına uyğun düzgün izah metodikası müəyyənləşdirilməlidir.

İnnovativ texnikalarının tətbiqi ilə reallaşdırılan buraxılış imtahanlarında istifadə edilən mətn tipli test tapşırıqlarının şagirdlər tərəfindən daha aydın mənimsənilməsi və daha qısa vaxt ərzində düzgün cavablandırılması metodikası ümumtəhsil məktəblərinin məhz aşağı siniflərdən formalaşdırılmalıdır. Müəllim tərəfindən mətn tipli tapşırıqların tədris olunan mövzuya uyğun metodlar əsasında düzgün müəyyən edilməsinə, eləcə də, şagirdlər tərəfindən bu tapşırıqların əməkdaşlıq çərçivəsində maksimum hansı səviyyədə düzgün və ya vaxtında yerinə yetirilməsi nəzarət edilməlidir. Ümumtəhsil məktəblərində Azərbaycan dili fənninin tədrisində mətn tipli test tapşırıqlarının düzgün öyrədilməsi metodikası təhsilalanların həm XI sinif üzrə buraxılış imtahanlarına yüksək səviyyədə hazırlanmalarına, həm də şagirdlər də geniş dünyagörüşünün formalaşdmasında mühüm əhəmiyyət kəsb edər.

Mətn tipli test tapşırıqlarının düzgün seçilməsi şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürlərinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Mətn tipli test tapşırılarının düzgün izah edilmə texnikası şagirdlərin mövzu ilə əlaqədar bu tapşırıqları müstəqil və qısa zaman ərzində yerinə yetirmələrinə şərait yaratmaqla yanaşı onlarda özünü tənqid, özünü qiymətləndirmə, özünə nəzarət kimi şəxsi keyfiyyətlərin də yüksək səviyyədə formalaşdırılmasına şərait yaradır.

- Plan- bir işin hazırlanması üçün əvvəlcədən düşünülmüş, ardıcıl surətdə həyata keçirilən tədbirlər sistemidir. Mətnin planının hazırlanmasını tələb edən sual tipində şagird əsas hadisələri yarımbaşlıqlar şəklində ifadə etməlidir.

Nümumə sual 1: X sinif Azərbaycan dili dərsliyində verilmiş “Vətən torpaq, Vətən eldir, Vətən!!!” mətnini əhatə edən üç bəndlik plan qurun.

İzah: Şagird plan tərtib edərkən ardıcıllığa mütləq əməl etməlidir. Şagird mətnin tərkib hissələrinə yarımbaşlıqlar- söz birləşmələri ilə cavablandırmaldır. İstinad edilən mətn nümunəsi əsasında plan quraq:

1. Vətənin haradan başlanması
2. Vətənə olan borcumuz
3. Basılmaz qala- Vətən

➢ Mətn tapşırıqları arasında geniş yayılmış sual tiplərindən biri də mətndə obrazların xarakterik xüsusiyyətlərinin müəyyənləşdirilməsidir.

Nümunə sual 2: VII sinif Azərbaycan dili dərsliyində verilmiş "Mübariz" mətninə əsasən obrazın ən azı iki xarakterik xüsusiyyətini qeyd edin.

İzah: Xarakterik xüsusiyyət bir şəxsi və ya bir şeyi digərlərindən fərqləndirən xüsusiyyətdir. Şagird bu tipli suallarda obrazın əməllərini deyil, həmin obrazın özünəməxsus xarakterini isim, sifət, yaxud feili sifətlərlə ifadə etməyi bacarmalıdır. Qeyd edilən mətnə istinadən şagird Mübarizin vətənpərvər, cəsarətli, qətiyyətli olduğunu müəyyən edərək tapşırığı düzgün şəkildə cavablandıra bilər.

➢ Mətn tapşırıqları arasında şagirdlərin çətinlik çəkdiyi sual tiplərindən biri də tezisin qurulmasıdır. İlk öncə qeyd edək ki, tezis geniş mülahizənin qısa izahı, doğruluğu sübut edilməli olan müddəadır. Tezis termini müxtəlif sahələrdə fərqli mənalarda istifadə oluna bilər, lakin ümumilikdə o, müəyyən bir iddianı və ya fikri qısa, konkret şəkildə ifadə edən bir cümlə və ya fikirlər toplusudur. Buraxılış imtahanlarında mətnə əsasən tezisin müəyyən edilməsi qəbul imtahanlarında tezislə bağlı qarşıya çıxacaq əsas sual tipidir. Şagird tezis anlayışını tam mənimsəmək üçün bu məqamlara diqqət etməlidir:

1. Tezis mətndən götürülmüş faktlarla sübut edilməlidir;
2. Tezis mətndə irəli sürülən əsas müddəaları özündə əks etdirməlidir;
3. Tezis mətndən başa düşülən fikrin bir-iki cümlə formasında ifadə edilməsidir.

Nümunə sual 3: Mirzə Hüseyn Qayıbzadə Qori Müəllimlər Seminariyasında Azərbaycan dili və şəriət müəllimi vəzifəsinə təyin edilmişdi. O, şəriət qanunlarının çox güclü olduğu bir dövrdə azərbaycanlıların dünyəvi təhsil alması yolunda böyük xitmətlər göstərmi, Azərbaycan təhsili tarixində silinməz izlər qoymuşdur. Verilmiş nümunə əsasında tezis yazın.

İzah: Tezis yazarkən şagird ilkin olaraq mətndə olan fakta istinad etməli, daha sonra özü oxucu kimi müddəa irəli sürməlidir. Qeyd edilən nümunəyə əsasən şagird yazmalıdır:

- Müddəa: Mirzə Hüseyn Qayıbzadə pedaqoji fəaliyyətlə məşğul olmuşdur. (Şagird müddəanı özü irəli sürməlidir)
- Fakt: Mirzə Hüseyn Qayıbzadə Qori Müəllimlər Seminariyasında Azərbaycan dili və şəriət müəllimi vəzifəsinə təyin edilmişdi. (Şagird mətnə istinad etməlidir)

Beləliklə, ümumtəhsil məktəblərində Azərbaycan dilinə aid mövzuların tədrisində mətn tipli test tapşırılarının düzgün izah edilməsi metodikası şagirdlərin aktiv idrak fəaliyyətlərinin, məntiqi, tənqidi və yaradıcı təfəkkürlərinin inkişaf etdirilməsi ilə yanaşı həmçinin əldə etdikləri yeni biliklərinin buraxılış imtahanlarında mətn tipli tapşırıqlarına daha asan üsullarla qısa vaxt ərzində düzgün tətbiqetmə bacarıqlarının inkişaf etdirilməsində müstəsna əhəmiyyət kəsb edir.

## Ədəbiyyat:

1. Rafiq İsmayılov, Aynur Rüstəmova, Hidayət Allahverdi, Sahibə Məmmədova 7-ci siniflər üçün Azərbaycan dili dərsliyi, "Altun", Bakı, 2022, s.13-16
2. Tofiq Hacıyev, Samirə Bektaşi, Yeganə Hüseynova 10-cu siniflər üçün Azərbaycan dili dərsliyi, "Şərq-Qərb", Bakı, 2022, s.110-112
3. Balıyev.H.B. Orta məktəblərdə Azərbaycan dilinin tədrisi metodikası – Bakı. Maarif, -1988, -255s
4. Balıyev.H.B. Orta məktəblərdə Azərbaycan dilinin tədrisi metodikasından mühazirələr– Bakı. ADPU-nun mətbəəsi, 2007, 421 s
5. Sədaqət Sərxan. Azərbaycan dili zehin xəritələri əsasında, Bakı 2024, 251s